





## XX əsrin bəlası - Deportasiya

# Əzəli yurda qayıdış sarsılmaz iradədir

**Qərbi Azərbaycan... Bu ad hər bir azərbaycanlının ruhundadır. Keçmişin ağrısını, izlərini, doğma torpağın nəfəsini daşıyan bu yerlər - qədim İrəvan xanlığının torpaqları - həm də milli kimliyimizin, mədəniyyətimizin və mənəvi yaddaşımızın əzəli beşiyidir. Orada doğulanların qəlbində torpağın hər qarışı ilə bir tale bağlılığı var. O dağlar, o çaylar, o kənd yolları illərlə sönməyən bir məşəl kimi bu millətin yaddaşında yaşayır.**

Tarixin acı səhifələri bu torpaqlarda azərbaycanlılara qarşı aparılmış amansız deportasiya və təmizləmə siyasətinin şahididir. 1918-ci il mayın 28-dən sonra qədim İrəvan torpaqlarında başlanan planlı şəkildə aparılan köçürmələr soydaşlarımızın həyatında dərin yaralar açdı. 1905-1920-ci illərdə başlayan, 1948-1953-cü illərdə davam edən və nəhayət 1987-1991-ci illərdə ən faciəli mərhələsinə çatan bu proses, əslində təkcə insanların yurdundan qoparılması deyildi - bu həm də bir mədəniyyətin, tarixin yaddaşının susdurulması cəhdi idi. Son mərhələdə 300 mindən çox azərbaycanlı doğma yurd-yuvasından zorla çıxarıldı. Onların evləri talan edildi, mülkləri əllərindən alındı, yaşamaq haqqı əllərindən alındı. Yandırılmış kəndlər, yerlə-yeksan edilmiş abidələr, dağıdılmış məscidlər - bunlar tarixə yalnız statistik məlumat kimi deyil, bir xalqın kollektiv yaddaşına vurulmuş yara kimi yazıldı. Minlərlə günahsız insan qətlə yetirildi, yüzlərlə ailə köksündə sağalmaz həsrətlə yaşamağa məcbur edildi. Bu acı gerçəklər gələcək nəsillər üçün tarixi bir məsuliyyət yaradır. Qərbi Azərbaycan yaddaşımızın dərinliyində yaşayan bir çağırışdır - azərbaycanlının ruhunda əbədi səslənən bir haraydır.

Sovet dövründə verilən sərəncamlar isə bu məkrli siyasəti daha da dərinləşdirdi. Azərbaycanın qədim yer adları xəritələrdən silinir, onların yerinə yad və saxta toponimlər yerləşdirilirdi. Çayların, göllərin, dağların adları belə dəyişdirildi. Sanki təbiətin özünü belə erməniləşdirmək istəyirdiləri. Bu, bir xalqın tarixini pozmaq, yaddaşını məhv etmək üçün atılan soyuq və planlı addımlar idi. İkinci Dünya müharibəsi illərində erməni daşnak dairələri dünya tarixi üçün qaranlıq bir dönəmdə belə fürsət axtarmaqdan çəkinmədilər. Onlar bir tərəfdən Hitlerə ümid bağlayır, Zaqafqaziyada yeni dövlət xəyalları qururdular. Digər tərəfdən isə Sovetlərin qələbəsini gözləyib Türkiyənin Qars vilayətinə və ətraf ərazilərə iddia irəli sürmək planlarını hazırlayırdılar. Bu faktlar erməni siyasətinin illərlə üzə çıxmayan, amma köklü və təhlükəli mahiyyətini bir daha ortaya qoyur. Bu siyasətin hədəfi yalnız torpaq deyil, xalqın ruhu idi. Onlar Azərbaycanın tarixini, kimliyini, mədəniyyətini sıradan çıxarmaq istəyirdilər. Amma unutdular ki, yaddaş silinmir, haqq nazilər, amma üzülməz.

Əfsuslar olsun ki, bu gün Cənubi Qafqazda davamlı sülhə və insan hüquqlarına yönəlmiş ən böyük təhdid Ermənistanın siyasi rəhbərliyində kök salmış irqçi ideologiyadan və radikal millətçilikdən qaynaqlanır. Bu ideoloji xəstəlik bütöv bir xalqın təfəkkürünə yeridilmiş təhlükəli zəhərdir. Məsələn, tarixin arxivlərindən üzə çıxan, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın 1993-cü ildə etdiyi çıxış bu həqiqəti çılpaq şəkildə ortaya qoyur. "Ermənistan və Qarabağın yad millətlərdən tamamilə təmizlənməsi" kimi insanlıq əleyhinə planı tarixi nailiyyət kimi təqdim edən bu çıxış Ermənistan siyasi elitasının iç üzünü ortaya qoyur. Bu, bir dövləti idarə edən zehniyyətin mahiyyətidir. Daha sonra ikinci prezident Robert Köçəryanın beynəlxalq təşkilat tribunasından səsləndirdiyi "Azərbaycanlılar və ermənilər genetik və etnik cəhətdən bir-birinə uyğun gəlmirlər" ifadəsi isə bu irqçi ideologiyanın beynəlxalq auditoriyada da utanmazcasına müdafiə olunduğunu göstərir. Ardınca prezident Serj Sarkisyan və onun siyasi komandası isə açıq şəkildə faşist Qaregin Njdeyə heykəl ucaltdı və onun "Tsexakronizm" adlanan irqçi, ifrat millətçi ideologiyasına sitayiş edirdi və bu hələ də davam edir. Bu ideologiya müasir dövrdə sivil dünya üçün qəbuledilməz sayılan faşist düşüncələrin Ermənistanın siyasi sistemində nə qədər dərin kök saldığını sübut edir. Faktlar sistemli düşüncənin, dövlət siyasətinə çevrilmiş nifrət ideologiyasının göstəriciləridir. Ermənistan rəhbərlərinin sözləri və əməlləri, bu ölkədə yaşayan və yaşamaq istəyən digər xalqlar üçün heç bir yer olmadığını açıq şəkildə nümayiş etdirir. Belə mənzərə qarşısında Azərbaycan xalqının üzləşdiyi faciələr, yurd-yuvasından didərgin düşmüş minlərlə insanın yaşadığı ağrılar və qırılmış talelər daha dərindən anlaşılır. Şübhəsiz, bu gün də faşist ruhlu, nasist düşüncəli fərdlər rəsmi İrəvanda rəhbər postlarda əyləşiblər. Ermənistan rəhbərliyində təmsil olunan belə düşüncə tərzi dəyişmədikcə regionda əsl sülhdən danışmaq mümkün deyil.



Bütün bunlara paralel olaraq Qərbi Azərbaycana Qayıdışın realizəsi naminə İcma gecə-gündüz yorulmadan, qətiyyət və uzaqgörənliklə çalışır. Təsadüfi deyil ki, Prezident cənab İlham Əliyev cari il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsi zamanı bu məsələyə xüsusilə toxundu. Ölkə başçımız bildirdi ki, Azərbaycanda fəaliyyət göstərən, Qərbi Azərbaycandan olan bir neçə ictimai qurum vahid bir təşkilat çərçivəsində birləşdi: "Qərbi Azərbaycan İcması, onun fəaliyyəti daha da təkmilləşdi, o cümlədən beynəlxalq fəaliyyəti, bir çox beynəlxalq təşkilatlarla təmaslar yaratdı və bu məsələ artıq beynəlxalq gündəliyə salınmışdır. Çünki bu vacibdir. Həm beynəlxalq leksikona, həm beynəlxalq gündəliyə artıq bu məsələ salınmışdır". Qeyd edək ki, İcmanın gördüyü işlər arasında ən bariz təzahür isə məhz Böyük Qayıdış Konsepsiyasıdır. Böyük Qayıdış Konsepsiyası yalnız texniki və hüquqi sənəd deyil. Bu, doğma yurda uzanan yolun ruhunu, fəlsəfəsini və strateji çərçivəsini ifadə edən milli iradə manifestidir. Konsepsiyada hər bir soydaşımızın haqqı, hər bir dağıdılmış evin yaddaşı, hər bir azərbaycanlının ləyaqəti öz əksini tapır. Planlı, hüquqi və sülhə əsaslanan qayıdış mexanizmləri ilə zəngin olan bu sənəd həm də regionda davamlı sabitliyin və ədalətli tarixi bərpa prosesinin əsas bələdçisinə çevrilmişdir. Konsepsiyanın əsas dayaqları beynəlxalq hüquq normaları, dövlətlərarası razılaşmalar, BMT nizamnaməsi və insan hüquqlarına dair fundamental prinsiplərlə təmin olunmuşdur. Bu sənəd zorla yurdlarından qovulmuş on minlərlə azərbaycanlının itirilmiş hüquqlarının bərpası üçün aparılan mübarizənin hüquqi sütunlarını formalaşdırır. Tarixə, ədalətə və qanunlara söykənən bu çağırış dünya birliyinə ünvanlanan açıq müraciətdir - bir xalq öz doğma yurduna sülh yolu ilə, ləyaqətlə və təhlükəsiz şəkildə qayıtmaq istəyir.

Bu yolda ən mühüm dönüş nöqtələrindən biri də BMT Katibliyinin Böyük Qayıdış Konsepsiyasını Təhlükəsizlik Şurası, Baş Assambleya və İqtisadi-Sosial Şuranın rəsmi sənədi kimi qəbul etməsi və yayması oldu. Bu, Azərbaycandan didərgin salınmış insanların haqq səsinin eşidildiyinin təsdiqidir. Dünya artıq bizi dinləyir. Dünya bu xalqın qürurla yüksələn haqq çağırışına biganə qalmır. Sözügedən beynəlxalq dəstək Azərbaycan xalqının iradəsini daha da möhkəmləndirir. Hər bir azərbaycanlının içində oyanan qayıdış ümidi artıq sönməyən işığa çevrilmişdir. İcmanın fəaliyyəti hər bir soydaşımıza yalnız ümid yox, həm də inam bəxş edir - biz bu yolu əminliklə və ləyaqətlə gedirik. Bizim amalımız sülh, ədalət və insan haqlarıdır. Bu yolun sonunda doğma kəndlərimizin səması altında yenidən azan səsləri ucalacaq, ata-baba yurdlarında ocaqlarımız yenidən alovlanacaq.

Xüsusilə vurğulanmalıdır ki, dövlət səviyyəsində Qərbi Azərbaycana Qayıdış hüququmuz tam dəstəklənir. Məsələn, Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun təsis olunması xalqımızın yaddaşına qızıl hərflərlə yazılan məqamdır. Bu qərar illər boyu ata-baba ocaqlarından qoparılmış, doğma yurdlarının həsrəti ilə yaşayan minlərlə soydaşımız üçün ümid qapısının açılmasıdır. Təşəbbüs Qrupunun yaradılması tarixin yeni səhifəsinin yazılmasına, itirilmiş ədalətin bərpasına doğru atılmış möhtəşəm addımdır. Bu, qəlblərdə kök salmış qayıdış istəyinin rəsmi dillə ifadəsi, hüququn səsinə çevrilmiş xalq iradəsidir. Qərarın ardınca gələn ictimai dəstək, dövlət səviyyəsində nümayiş olunan qətiyyət soydaşlarımızın inamını daha da gücləndirir. Artıq hər bir azərbaycanlı bu yolun sonunu görür. Hansı ki, yolun sonunda doğma yurd var, ocağı sönmüş evlərə qayıdış var, babaların dualarla saldığı kəndlərdə yenidən həyat var. Həmçinin sözügedən təşəbbüs həm də beynəlxalq aləmə ünvanlanan açıq və birmənalı mesajdır. Azərbaycan xalqı öz yurdlarından vaz keçməyib və sülh, hüquq və ədalət yolu ilə doğma torpaqlarına dönmək əzmindədir.

**Nurlan ABDALOV,**
**"Respublika".**